# FİLMOQRAFİYA



## *Arşın mal alan (film, 1945)*

"Arşın mal alan"- rejissorlar Rza Təhmasib və Nikolay Leşşenko tərəfindən 1945-ci ildə ekranlaşdırılmış Azərbaycan tammetrajlı bədii filmi. Film Bakı Kinostudiyasında istehsal edilmişdir. Filmdə əsas rolları Rəşid Behbudov, Leyla Bədirbəyli, Ələkbər Hüseynzadə, İsmayıl Əfəndiyev, Münəvvər Kələntərli, Lütfəli Abdullayev, Fatma Mehrəliyeva və Rəhilə Mustafayeva ifa edirlər.

Bu film Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında dövlət varidatı elan edilən filmlərin siyahısına daxil edilmişdir.

***Məzmun*** - Bakı, XX əsrin əvvəli. Gənc tacir Əsgər (Rəşid Behbudov) evlənmək fikrinə düşür. Lakin dövrün qaydalarından fərqli olaraq o, qızı toydan öncə görüb sonra evlənmək istəyir. Bəs nə etməli? Bu məsələnin həllində dostu Süleyman (İsmayıl Əfəndiyev) onun köməyinə gəlir.

Film kinostudiyanın 1941-ci il planına salınsa da, Böyük Vətən müharibəsinin başlanması ilə çəkilişi təxirə salınır. Musiqili film Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun eyniadlı operettası əsasında ekranlaşdırılmışdır. Təkcə 1945-ci ildə bu filmə (ekrana buraxıldıqdan sonra) 16,27 milyon tamaşaçı baxmışdır. 8-ci yeri tutmaqla prokat lideri olmuşdur. ("Domaşnaya Sinematika" bədii filmlərinin kataloqu. Moskva, 1966). Rusiya kinosunun 100 illiyi münasibətilə aparılan sosioloji tədqiqatlar nəticəsində sovet kinosunun inkişafına əhəmiyyətli təsir göstərmiş sovet filmlərinin və sovet ekranında uzun illər nümayiş etdirilmiş xarici ölkə filmlərinin arasından "100 Sevimli film" seçilmişdir. Həmin filmlər üç hissəyə-Qızıl, Gümüş və Bürünc siyahılara ayrılmışdır. 1945-ci ildə istehsal olunmuş "Arşın Mal Alan" kinokomediyası məşhur kino mütəxəssislərinin yekdil rəyi ilə "Qızıl Siyahı" ya daxil edilmişdir. Film Sovet dövründə 136 ölkədə nümayiş etdirilmiş, 86 dilə tərcümə edilmişdir. Mədəniyyət və Turizm Nazirliyi Beynəlxalq Bankın maliyyə dəstəyilə "Arşın mal alan" filminin Moskva Film Fondundakı nüsxəsinin ölkəmizə gətirilərək, Azərbaycan dilində yenidən bərpa olunmasını təşkil edib. 16 may 2006-cı ildə film 60 illiyində ilk dəfə nümayiş etdirilib. Film 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü, Ata Holdingin dəstəyi və "Peachline" şirkətinin təşkilatçılığı ilə bərpa olunub və rənglənib. Bərpa edilmiş və rənglənmiş "Arşın mal alan" filmi 19 sentyabr 2015-ci ildə Hollivudda nümayiş olunub. Filmin nümayişi Üzeyir Hacıbəylinin anadan olmasının 130, Rəşid Behbudovun 100, "Arşın mal alan" filminin isə 70 illiyinə həsr olunub. Filmi 650 nəfərə yaxın tamaşaçı izləyib. Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun təşkilatçılığı ilə "Arşın mal alan" filmi Hollivudun məşhur "Ricardo Montalban" kinoteatrında nümayiş olunub. 2018-ci ilin martında film "Xarici ölkələrin filmləri" həftəsi çərçivəsində Parisin "Balzak" (fr. Le Balzac) kinoteatrında nümayiş olunub.

***Filmin üzərində işləyənlər:***

Əsərin müəllifi: Üzeyir Hacıbəyov

*Ssenari müəllifi: Sabit Rəhman*

Rejissor: Rza Təhmasib, Nikolay Leşşenko

Operator: Əlisəttar Atakişiyev, Muxtar Dadaşov

Rəssam: Yuri Şvets

Bəstəkar: Üzeyir Hacıbəyov



## ***O olmasın, bu olsun (film)***

O olmasın, bu olsun - 1956-cı ildə Hüseyn Seyidzadə tərəfindən çəkilmiş film. Bəstəkar Üzeyir Hacıbəyovun eyniadlı operettası əsasında ekranlaşdırılmışdır.

Filmdə 1910-cu ildə Bakıda cərəyan edən hadisələr göstərilir. İki gəncin - Sərvər (Arif Mirzəquliyev) və Gülnazın (Tamara Gözəlova) böyük və ülvi məhəbbətindən, məhəbbətin pula, cəhalətə və feodal qalıqlarına qalib gəlməsindən bəhs olunur. Əsas qəhrəmanlarla yanaşı filmdə Rüstəm bəyin bir çox dost-tanışı: tacirlər, alverçilər, qoçular, mürtəce, satqın jurnalistlər də öz əksini tapır. Lakin rejissor mənfi qüvvələri belə insana sevdirməyə nail olmuşdur.

***Filmin heyəti:***

*Sabit Rəhman – ssenari müəllifi*
Hüseyn Seyidzadə – quruluşçu rejissor
Əlisəttar Atakişiyev – quruluşçu operator
Əlisəttar Atakişiyev – geyim rəssamı
Cəbrayıl Əzimov, Nadir Zeynalov – quruluşçu rəssamlar
Əziz Şeyxov – səs operatoru
Fikrət Əmirov – musiqi redaktoru
Şua Şeyxov – rejissor
Mirzə Mustafayev – operator
Georgi Parisaşvili – qrim rəssamı
A.Filimonova – montaj üzrə assistent
Fikrət Əmirov – dirijor
Daniil Yevdayev – filmin direktoru
Tofiq Sultanov – operator assistenti
Sergey Klyuçevski – quraşdırılmış səhnələrin operatoru
Mirzə Rəfiyev – quraşdırılmış səhnələrin rəssamı
Ramiz Əliyev – rejissor köməkçisi
Mirzə Babayev (Məşədi İbad), Firəngiz Əhmədova (Gülnaz), Məmmədtağı Bağırov (Rüstəm bəy) – mahnı ifaçıları
Əlibaba Abdullayev – rəqs quruluşçusu
Əlisəttar Məlikov – rejissor assistenti




## ***Koroğlu (film, 1960)***

Qəhrəmanlıq kino dastanı əfsanəvi qəhrəman Koroğlu (Əfrasiyab Məmmədov) haqqında eyniadlı məşhur xalq dastanının ekran variantıdır.

Burada Azərbaycan xalqının yadelli işğalçılara və yerli zülmkarlara qarşı apardığı mübarizədən danışılır.

***Film haqqında:***

Film geyim rəssamı Bədurə Əfqanlının kinoda ilk işidir.
Film operator Şərif Şərifovun bədii kinoda ilk işidir.
Film aktyor Ələddin Abbasovun kinoda ilk işidir.
Film ilk rəngli tammetrajlı genişekranlı bədii filmdir.
Filmin çəkilişi Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 40-cı ildönümünə həsr edilib.

***Film üzərində işləyənlər:***

*Ssenari müəllifi: Sabit Rəhman*
Quruluşçu rejissor: Hüseyn Seyidzadə
Quruluşçu operatorlar: Vladimir Meybom, Fyodor Dobronravov
Rejissor: Məmməd Əlili
Quruluşçu rəssam: Pyotr Veremenko
Bəstəkar: Cahangir Cahangirov
Səs operatoru: Kərim Əmirov
Mahnıların mətni: Zeynal Cabbarzadə, Tələt Əyyubov
Geyim rəssamı: Bədurə Əfqanlı
Dekor rəssamı: Eduard Abdullayev
Quraşdırılmış səhnələrin operatoru: Nikolay Renkov
Quraşdırılmış səhnələrin rəssamı: B. Noskov
Qrim rəssamı: İ. Antimonov
Rejissor assistenti: Ramiz Əliyev
Montaj üzrə assistent: Y. Fomina
Operator assistentləri: Şərif Şərifov, A. Baranov
Çalır: Filmlər İstehsal edən İdarənin Simfonik Orkestri
Dirijor: A. Roytman
Filmin direktoru: Daniil Yevdayev
Mahnı ifa edir: Şövkət Ələkbərova, Lütfiyar İmanov



## ***Əhməd haradadır?***

Əhməd haradadır? - 1963-cü ildə çəkilmiş Azərbaycan filmi. Film müasir həyatımızdan, gənclərin köhnəlmiş adət-ənənələrə qarşı etirazlarından, həyatlarını öz istədikləri kimi qurmalarından bəhs edir.

Filmdə hadisələr kənddə və şəhərdə cərəyan edir. Valideynlərinin yanına gələn Əhməd (Səyavuş Şəfiyev) öyrənir ki, valideynləri onun fikrini öyrənmədən onu evləndirmək qərarına gəliblər. Buna qəzəblənən Əhməd evdən çıxıb gedir. Eyni hadisə Leylanı (Töhfə Əzimova) da başına gəlir. Onu da məcburən ərə vermək istəyirlər, lakin o da oxumaq üçün çıxıb şəhərə gəlir. Əhmədin ailəsi onu axtarmağa gedir. Lakin təsadüf nəticəsində Əhməd ilə Leyla qarşılaşır və bir - birlərini sevirlər.

Film rejissor, aktyor Adil İsgəndərovun kinoda rejissor kimi yeganə işidir. Bundan qabaq 1944-cü ildə "Fətəli xan" filmini çəkməyə başlasa da müəyyən səbəblərdən film yarımçıq qalmışdır. Film aktyor Elxan Qasımovun kinoda ilk işidir. Film aktyor Eldəniz Zeynalovun kinoda ilk işidir. Film aktyor Novruz Axundovun kinoda ilk işidir. Film aktrisa Amaliya Pənahovanın kinoda ilk işidir. Film aktyor Səyavuş Şəfiyevin kinoda ilk işidir. Filmdə sürücü Əhməd roluna operator Yuli Fogelman rus aktyoru İqor Kvaşanı çəkmək istəyirdi. Filmdə sürücü Əhmədin Ceyrandan razılıq cavabı alaraq üç metr hündürlüyü olan tikinti çuxuruna yıxılır. Bu trükü aktyorun özü etmişdir. Ceyran rolunun ifaçısı gürcü aktrisası Nona Paçuaşvili filmə çəkilmək üçün həyat yoldaşı ilə Bakıya gəlir. Lakin aktrisanın həyat yoldaşı Bakıda qəflətən vəfat edir. Eyni zamanda ana olmağa hazırlaşan aktrisanın həyatında baş verən bu qəmgin hadisə onun filmdəki obrazına da təsir etmişdir. Aktrisa Ceyran rolunda bir çox kadrda kədərli üz ifadəsini gizlədə bilmir. Aktrisa çəkildiyi filmi uzun illər görməmişdi. Yaxın keçmişdə təşkil olunan filmin yubileyində aktrisa filmə ilk dəfə baxmışdır. Çəkilişlər Bakı bulvarında, Gəncədə, Hacıkənd yollarında, Ağdaşda, Sumqayıtda, Göyçayda aparıldı. Əhmədin kəndə gələrkən öküzlərin körpünün üstündə vuruşduğu kadr Ağsu körpüsünün üstündə çəkilib. Dostların qaldığı yataqxana isə Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun yataqxanasıdır. Səyavuş Aslanın məşhur rəqs yeri, "Uzundraz Oktay"ın girişi keçmək səhnəsi məhz orda çəkilib. Əhmədin Ceyranı aşağıdan çağırdığı yer İçərişəhər tərəfdə yerləşən "Tut ağacı" restoranıdır. Balkonda oturub çay içilən yer Dağüstü parkdır. Filmdə Əliağa Ağayevin çəkildiyi kassa səhnəsi tamamilə dekorasiydır. Kardondan qurulmuş dekordur. Aktyorun yediyi yemək isə qoyun içalatının qızartmasıdır. Başını daz qırxdırıb, özünə uzun bığ qoymaq məhz aktyorun şəxsi təşəbbüsü olmuş və rejissor tərəfindən qəbul edilmişdir. Filmdəki tikinti səhnələri Bakıda Şərifzadə küçəsində aparılan tikintilərdir. Film Moskvada əvvəlcə qəbul edilməyib və zəif film kimi qiymətləndirilib. Bu səbəbdən çox az tirajla bu film ekranlara buraxıldı. Lakin sonralar filmin göndərilməsi üçün Türkmənistan, Özbəkistan, Rusiyanın müxtəlif şəhərlərindən Moskvaya sifarişlər gəldi. Beləliklə film SSRİ-də ən çox göstərilən və pul yığan filmlərdən birinə çevrildi. Film barədə akademik Cəfər Cəfərov demişdir ki, filmin dramaturgiyası yarıdan sonra get-gedə zəifləyir. Film daha çox film-konsertə oxşayır.

***Film üzərində işləyənlər:***

*Ssenari müəllifi: Sabit Rəhman*
Quruluşçu rejissor: Adil İsgəndərov
Quruluşçu operator: Yuli Fogelman

Quruluşçu rəssam: Məmməd Hüseynov
Bəstəkar: Rauf Hacıyev
Səs operatoru: Əziz Şeyxov
Rejissor: Yusif Bağırov
Operator: B. Vlasov
Montaj edən: L. Kyakşt, Tahirə Babayeva
Baletmeyster: Əlibaba Abdullayev
Geyim rəssamı: Kazım Kazımzadə
Mahnıların Mətni: Tələt Əyyubov
Quraşdırılmış səhnələrin operatoru: Mirzə Mustafayev
Quraşdırılmış səhnələrin rəssamı: Mirzə Rəfiyev
Redaktor: M. Qurbanov
Filmin direktoru: S. Bəyazov
Pianoda çalan: Akif Abdullayev ("Leyla" əsəri)



***Ulduz (film, 1964)***

Ulduz - rejissor Ağarza Quliyevin filmi. 1964-cü ildə bəstəkar Süleyman Ələsgərovun eyniadlı pyesi əsasında ekranlaşdırılıb. Böyük şöhrət qazanmış komediya dəfələrlə müxtəlif teatr səhnələrində tamaşaya qoyulub. 1965-ci il martın 29-da Nizami adına kinoteatrda “Ulduz” musiqili kinokomediyasına ilk baxış keçirilib. Ağarza Quliyevin quruluş verdiyi bu filmdə bir daha məşhur aktyorlar - Bəşir Səfəroğlu, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Səyavuş Aslan, Məleykə Ağazadə, Hacıbaba Bağırov və digər sənətkarlar yer alıblar. Filmin əsas çəkilişləri Astara rayonunda aparılıb.

Kinokomediya iki sevən gəncin saf məhəbbətindən, eyni zamanda elmin həyatla əlaqəsindən, kəndin qabaqcıl ziyalılarının elmlə heç bir əlaqəsi olmayanlara, vəzifəpərəstlərə qarşı apardıqları mübarizədən danışır.

Film bəstəkar Süleyman Ələsgərovun eyniadlı operettasının motivləri əsasında ekranlaşdırılıb. Böyük şöhrət qazanmış komediya dəfələrlə müxtəlif teatr səhnələrində tamaşaya qoyulub. 1965-ci il martın 29-da Nizami adına kinoteatrda “Ulduz” musiqili kinokomediyasına ilk baxış keçirilib. Ağarza Quliyevin quruluş verdiyi bu filmdə bir daha məşhur aktyorlar - Bəşir Səfəroğlu, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Səyavuş Aslan, Məleykə Ağazadə, Hacıbaba Bağırov və digər sənətkarlar yer alıblar. Filmin əsas çəkilişləri Astara rayonunda aparılıb. Bəzi kadrlar Lənkəranda, toy səhnəsi kinostudiyanın pavilyonunda, ilk səhnələr isə Mərdəkan qəsəbəsinin Mədəniyyət Sarayında lentə alınıb. Filmin sınaq çəkilişlərində Şubay roluna namizəd kimi aktyor Tariyel Qasımov iştirak edib.[4] Hacıbaba Bağırovun kinoda ilk işi olub. Filmin maraq doğuran tvist səhnəsində Məleykə Ağazadə (Nazilə) və Hacıbaba Bağırov (Möhsün) Çubbi Çekerin ifasında ing. Let's Twist Again mahnısını həqiqətən də özləri oynayıblar.

***Film üzərində işləyənlər:***

Əsərin müəllifi: Süleyman Ələsgərov
Ssenari müəllifi: Ağarza Quliyev, Hüseyn Nəcəfov, Yuli Fogelman
*Libretto: Sabit Rəhman*

Mahnıların mətni: Zeynal Cabbarzadə
Quruluşçu rejissor: Ağarza Quliyev
Quruluşçu operator: Yuli Fogelman
Quruluşçu rəssam: Kamil Nəcəfzadə
Bəstəkar: Süleyman Ələsgərov
Rejissor: Niyaz Şərifov
Geyim rəssamı: Faiq Əhmədov
Səs operatoru: Şamil Kərimov
Redaktor: Hüseyn Nəcəfov
Rejissor assistenti: L.Berladir, Ə. İsmayılov
Operator assistenti: Eduard Qalakçiyev, Valeri Kərimov
Rəssam assistenti: Ə.Əzizov
Rəqslərin quruluşu: Əminə Dilbazi
Qrim rəssamı: Y.Skaçenkova, Telman Yunusov
Quraşdırılmış səhnələrin operatoru: Yuli Fogelman
Quraşdırılmış səhnələrin rəssamı: N.Xarbikov
Çalır: Azərbaycan Musiqili Komediya Teatrının Orkestri
Musiqi rəhbəri: Süleyman Ələsgərov
Dirijor: Süleyman Ələsgərov
Filmin direktoru: Bəşir Quliyev
Mahnı ifa edən: Lütfiyar İmanov, Mirzə Babayev, Mobil Əhmədov



***<u>Hicran (teatr tamaşası, 1983)</u>***

Hicran - 1983-cü ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının tamaşası.

***Rollarda:***

Səyavuş Aslan- Dadaşbala
Hacıbaba Bağırov- Mitoş
Nəsibə Zeynalova – Qızbacı
Novruz Qartal- Balaəmi
Bəhram Əliyeva – Orxan
Sona Həsənova-Hicran
Ofeliya Aslan – Çarlston
Şəfiqə Qasımova – Fatı
Dadaş Kazımov – Dursuno

***Film-tamaşa üzərində işləyənlər:***
*Libretto müəllifi: Sabit Rəhman*
Şeirlərin müəllifi: Vaqif Səmədoğlu
Bəstəkar: Emin Sabitoğlu
Qurluşçu rejissorlar: Şəmsi Bədəlbəyli, Vaqif Ağayev
Dirijor: Tale Qəniyev
Rəssam: Asəf Cəfərov
Truppa müdiri: Seyfulla Əmirov
Tamaşanı idarə edir: Kamil Hüseynov
Baş rejissor: Niyaz Şərifov

Baş dirijor: Kamal Abbasov
Teatrın bədii rəhbəri: Şəmsi Bədəlbəyli



## ***Şirin bülbül* (film, 2000)**

Film-tamaşa Sabit Rəhmanın hekayələrinin motivləri əsasında çəkilmişdir.

***Film-tamaşa üzərində işləyənlər:***

*Əsərin müəllifi: Sabit Rəhman*
Ssenari müəllifi: Camal Yusifzadə
Quruluşçu rejissor: Ələkbər Kazımovski
Quruluşçu operator: Aydın Mansurov
Montaj edən: Nasir Salamov
Kinooperator: Zakir Muxtarov
Quruluşçu rəssam: Rəfael Əlizadə
Musiqi tərtibatçısı: Minurə Əfəndiyeva
Rejissor assistenti: Nuranə Axundova
Geyim rəssamı: Adilə Mirzəliyeva
Qrim rəssamı: Solmaz Hüseynova
Sürücü: Qərib Əliyev
Redaktor: Mailə Muradxanlı
Direktor: Mirzə Əliyev
Musiqilərindən istifadə edilən bəstəkar: Eldar Mansurov



## ***Gülüş fenomeni. Sabit Rəhman (film, 2014)***

Gülüş fenomeni. Sabit Rəhman - rejissor Sənan Sultanovun 2014-cü ildə Azərbaycan Televiziyasında çəkdiyi sənədli film. Filmdə görkəmli yazıçı, Azərbaycanın əməkdar incəsənət xadimi Sabit Rəhmanın xatirəsinə həsr olunur. Filmdə "Toy", "Xoşbəxtlər", "Əliqulu evlənir", "Nişanlı qız", "Ulduz", "Hicran" tamaşalarının, "Arşın mal alan", "O olmasın, bu olsun", "Koroğlu", "Əhməd haradadır?", "Ulduz" filmlərinin kadrlarından istifadə edilmişdir.

***Film üzərində işləyənlər:***

Müəllif: Yaqub Əlioğlu
Rejissor: Sənan Sultanov
Operator: Zaur Haşımov
Montaj: Teymur Qəhrəmanov, Araz Əjdərov
Qrafika: Rövşən Qarayev
Videomateriallar: Həsən Cəbrayılov, Fuad Əhmədov
Rejissor assistenti: Ayxan Əhmədov, Vüsal Əzimov
Musiqi tərtibatçısı: Əliabbas Qasımov
İnzibatçı: Etibar Almazov
Mətni oxuyan: Ədalət Məmmədov, Eldəniz Rəsulov
Redaktor: Səyavuş Məmmədov

***Rollarda:***

Sərvər Nəzərov
Rauf Eyvazov